

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 80 (23.242)

1 may 2019-cu il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Birinci rübdə büdcə daxilolmalarının artdığını, bununla da əlavə maliyyə resursunun formalaşdığını deyən dövlətimizin başçısı ilin əvvəlindən ümumi daxili məhsulun, sənaye istehsalının, qeyri-neft sənayesinin, kənd təsərrüfatının, əhalinin gəlirlərinin artdığını, ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulduğunu deyib. Qeyd edib ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 25-ci yerə layiq görülüb və 10 ən islahatçı ölkə arasındadır.

"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və vətəndaşın rifahı üçün biz əlimizdən gələni edirik", – deyən Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının əhəmiyyətindən danışıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kenti qəbul edib.



## S.H.Məmmədova "Əməkdar dövlət qulluqçusu" fəxri adının verilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Səbuhi Hidayət oğlu Məmmədova **"Əməkdar dövlət qulluqçusu"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 30 aprel 2019-cu il*

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin 2019-cu il 18 aprel tarixli 46 nömrəli qərarı ilə "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişikliklər edilməsi haqqında" və "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən yeni alınan, lizinqə verilən və lizinq yolu ilə satılan texnikaya güzəştlərin tətbiq edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 2 sentyabr tarixli 77 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında" qərarlar qəbul edilmişdir.

Bundan başqa, Nazirlər Kabinetinin 2019-cu il 29 aprel tarixli 52 nömrəli qərarı ilə "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin vəzifə maaşları sxeminin və məbləğlərinin, vəzifə maaşlarına əlavələrin məbləğlərinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 avqust tarixli 79 nömrəli Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən müəllimlərinin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan dövlət ümumi təhsil müəssisələrinin direktorlarının aylıq vəzifə maaşı "Dövlət büdcəsindən maliyyələşdirilən müəssisələrdə çalışan işçilərin əməyinin ödənilməsinin Vahid Tarif Cədvəli"nin 18-ci dərəcəsinə uyğunlaşdırılmış, direktor müavinlərinin aylıq vəzifə maaşı isə direktorun vəzifə maaşından 10 faiz aşağı müəyyən edilmişdir.

Həmçinin "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin 2019-cu ildə yerinə yetirəcəyi aqrotexniki xidmətlərin qiymətləri və yanacaq norması"nın təsdiq edilməsi haqqında, eləcə də Nazirlər Kabinetinin 2019-cu il 29 aprel tarixli 53 nömrəli qərarı ilə "Büdcə təşkilatlarında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, təbii qaz və su) istehlakına görə limitlərin müəyyən edilməsi və tənzimlənməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Qərar qəbul edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar.nakhchivan.az*) tanış olmaq mümkündür.

## Sərəncamın icrası ilə bağlı tədbirlər keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birgə tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bu sərəncamın mütəxəssis hazırlığındakı mühüm rolundan bəhs edib.

Daxili İşlər Nazirliyinin Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis polkovniki Rəşad Seyidov bildirib ki, məlum sərəncamla universitetin Hüquq ixtisası digər hüquq-mühafizə orqanları ilə yanaşı, Daxili İşlər Nazirliyinin də hamiliyinə verilib. Qeyd edilib ki, yeni sərəncam bilikli və təcrübəli gənc kadrların yetişdirilməsinə, onların öz ideyalarının təcrübədə tətbiqinə xidmət edəcək.



Diqqətə çatdırılıb ki, bu sahədə hami təşkilatların qarşısına qoyulan vəzifə muxtar respublikada investisiya mühitini yaxşılaşdırmaq, yaradıcı düşüncəni və inkişafa xidmət edən ən yaxşı layihələri üzə çıxarmaq, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə nail olmaqdır. Düşünülmüş ideyalara söykənən startap layihələrin tətbiqi muxtar respublikada iqtisadiyyatın, səhiyyənin, turizmin və digər sahələrin inkişafına xidmət edir.

Bildirilib ki, hər bir layihə hazırlanarkən ölkə qanunvericiliyinə və respublikamızın tərəfdar çıxdığı beynəlxalq qanunvericiliyə ciddi əməl olunmalıdır.

İstintaq və Təhqiqat Şöbəsinin rəisi, polis polkovniki Hikmət Əliyev, İstintaq və Təhqiqat Şöbəsinin Kriminalistik tədqiqatlar bölməsinin baş kriminalist-təhqiqatçısı, polis-mayoru Mirhəsən Seyidli nazirliyin iş strukturu, kriminalistika sahəsində istifadə olunan üsullardan söhbət açıblar. Çıxış edənlər startap layihələrinin əhəmiyyətini vurğulayıblar.

**Səadət ƏLİYEVA**

* * *



Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən Dövlət və bələdiyyə idarəetməsi ixtisasının tələbələri ilə birgə həyata keçiriləcək ilk startap layihəsinin – "Vətəndaşların dövlət qulluğuna qəbulunun stimullaşdırılması" layihəsinin təqdimatı keçirilib.

Tədbiri giriş sözü ilə Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli bildirib ki, müvafiq sərəncamın icrasının təmin edilməsi ilə əlaqədar İnnovasiya və Startapların Dəstəklənməsi Mərkəzi yaradılıb. Mərkəz "Vətəndaşların dövlət qulluğuna qəbulunun stimullaşdırılması" layihəsini hazırlayıb. Layihənin əsas məqsədi rayonlarda yaşayan, elektron xidmətlərdən istifadə etməkdə çətinlik çəkən vətəndaşlara yaşadıqları yerlərdə "səyyar dövlət qulluğu xidməti"nin göstərilməsidir.

Daha sonra komissiyanın əməkdaşı, Naxçıvan Dövlət Universitetinin müəllimi Türkan Gülməmmədli slaydlar vasitəsilə "Vətəndaşların dövlət qulluğuna qəbulunun stimullaşdırılması" layihəsi ilə bağlı ətraflı məlumat verib. Qeyd edib ki, komissiya üçün yeni internet portalının və proqram təminatının istifadəyə verilməsi vətəndaşların dövlət qulluğuna qəbulu ilə əlaqədar müraciət etmək imkanlarının asanlaşdırılmasına, yaranan vaxt və maliyyə itkisinin qarşısının alınmasına, "şəxsi kabinet" vasitəsilə internet üzərindən qeydiyyatdan keçməklə müsabiqələrdə iştirakına imkan yaradır.

Tədbirin sonunda İnnovasiya və Startapların Dəstəklənməsi Mərkəzinin direktoru, komissiya sədrinin müavini Ümid Qurbanov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın fəaliyyəti ilə bağlı mobil aplikasiyanın hazırlanması üçün elan edilmiş müsabiqə barədə məlumat verib.

Sonda qeyd olunan məsələlərlə bağlı müzakirələr aparılıb.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Şura iclası olub



Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının onbirinci şura iclasında rayon təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev təşkilatın 2019-cu ilin birinci rübündə gördüyü işlərdən və qarşıda duran vəzifələrdən danışıb. Qeyd edib ki, rayon təşkilatı İdarə Heyəti və şura üzvləri iş planına uyğun olaraq fəaliyyətlərini ərazi ilk təşkilatları ilə birgə davam etdirib, yerlərdə sakinlərlə görüşlər keçiriblər. Bu görüşlərdə, əsasən, ölkəmizdə, eləcə də muxtar respublikamızda, o cümlədən rayonda regional inkişaf proqramlarının icrası istiqamətində görülən işlər, tikinti-quruculuq, abadlıq və yaşıllaşdırma tədbirləri barədə ətraflı məlumat verilir, qarşıya qoyulmuş vəzifələr və görülən işlər müzakirə olunur.

Bildirilib ki, üç ayda təşkilatın bir şura, 3 İdarə Heyəti yığıncağı keçirilib. Yığıncaqlarda görülən işlər müzakirə edilib, hər bir ərazi ilk partiya təşkilatının, ümumilikdə, bütün partiya üzvlərinin qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi sahəsində görəcəyi işlər müəyyənləşdirilib.

Məlumat verilib ki, Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının tərkibindəki 87 ərazi ilk təşkilatının qeydiyyatında 10 min 569 nəfər partiya üzvü vardır. Bunların da 3 min 179 nəfərini, yəni 30 faizini qadınlar, 2 min 929 nəfərini, yaxud 27,7 faizini gənclər təşkil edir. Bu ilin üç ayı ərzində Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunmuş 48 nəfərin 44-ü gəncdir.

Diqqətə çatdırılıb ki, gənclərin partiya sıralarına qəbulu ildən-ilə artan templə müşayiət olunur. Bu da onların həyata keçirilən siyasəti dəstəklədiklərini, iqtidar partiyasının üzvü olmaqdan qürur duyduqlarını göstərir.

Müzakirələrdə Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yeganə Məmmədova, təşkilatın Gənclər Birliyinin sədri Cahandur Məhərrəmov və Şərur şəhər ərazi ilk partiya təşkilatının sədri Məhərrəm Həşimov çıxış ediblər.

Sonda partiya sıralarına yeni qəbul olunmuş gənclərə üzvlük vəsiqələri verilib.

**Elman MƏMMƏDOV**

## İbrahim Səfiyevin yaradıcılığına həsr olunmuş elmi-praktik konfrans keçirilib

*Aprelin 30-da Azərbaycanda Atatürk Mərkəzində görkəmli fırça ustası İbrahim Səfiyevin yaradıcılığına həsr edilmiş elmi-praktik konfrans keçirilib. Konfrans Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyi, Oxu Akademiyası və Azərbaycan Atatürk Mərkəzinin birgə təşkilatçılığı ilə reallaşıb. Əvvəlcə qonaqlar unudulmaz rəssamın əsərlərindən ibarət sərgiyə baxıblar.*





Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərov çıxış edərək tədbirin əhəmiyyətindən söz açıb. O deyib ki, Azərbaycan əsilli rəssam İbrahim Səfiyev Türk dünyasının unudulmaz rəssamlarından biridir. Yaradıcılığının böyük hissəsi Türkiyə ilə bağlı olan rəssam yüzüncü sərgisini təşkil etdikdən sonra vəfat edib. Rəssam sovetlər dönəmində bir o qədər tanınmasa da, Türkiyədə ən böyük sənətkarlardan biri olub. İbrahim Səfiyevin yüzlərlə əsəri var ki, onlar dünyada məşhurdur. "O, ilk dəfə olaraq Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün şəklini özünə baxaraq portretləşdirib. Atatürkün dünyanın tanınmış rəssamları tərəfindən çəkilmiş çoxlu şəkilləri var, ancaq İbrahim Səfiyevin çəkdiyi şəkil bizim üçün doğmadır", – deyə Nizami Cəfərov söyləyib.

Akademik görkəmli rəssama həsr edilmiş tədbirin zəruriliyini qeyd edərək, ictimaiyyətin rəssamı daha da yaxından tanımasına ehtiyacı olduğunu diqqətə çatdırıb.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli rəssamın sənətin müxtəlif janrlarında yüksək nümunələr yaradaraq türk xalqlarının ortaq dəyərinə çevirməsindən danışıb. Vurğulayıb ki, İbrahim Səfiyev yaradıcılığına həsr edilmiş konfransın keçirilməsi Azərbaycan-Türkiyə mədəni əlaqələrinin əlamətdar hadisəsidir. Görkəmli rəssamın yaradıcılığının Azərbaycan ictimaiyyətinə təqdim edilməsi təqdirəlayiq addımdır.

Rəssam haqqında məlumat verən İsa Həbibbəyli qeyd edib ki, İbrahim Səfiyev 1898-ci ildə Şərur rayonunun Cəlilkənd kəndində anadan olub. O, Naxçıvandakı məşhur bəy sülaləsindəndir. Belə ki, Səfibəyovlar nəsli Naxçıvan kəngərlilərinin bir qoludur.

"Türkiyədə şöhrət qazanmış İbrahim Səfiyev ilə kəngərlilər nəslindən olan, Azərbaycan realist rəssamlıq məktəbinin əsasını qoymuş Bəhruz Kəngərli arasında genetik bağlılıq vardır. Görkəmli rəssamın bəzi əsərlərində Bəhruz Kəngərli yaradıcılığına bənzəyən yanaşmalar hiss edilir. İbrahim Səfiyev Qərb rəssamlıq məktəbində impressionistlərin türk əsilli ən görkəmli nümayəndələrindəndir. Bununla o, Türkiyədə incəsənətə böyük şöhrət qazandırıb. Onun mənsub olduğu ailənin özündə bir maarifçilik ənənəsi var idi. Biz bu tədbiri keçirməklə həm rəssamı xalqa tanıtmaq missiyasını yerinə yetiririk, həm də Türkiyə-Azərbaycan əlaqələrinə yeni bir səhifə əlavə etmiş oluruq", – deyən İsa Həbibbəyli vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Görkəmli rəssam İbrahim Səfiyevin 120 illik yubileyinin keçirilməsi haqqında" 2018-ci il 17 oktyabr tarixli Sərəncamı ilə İbrahim Səfiyev yaradıcılığının tədqiq edilib öyrənilməsinin də əsası qoyulub.

Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı, İbrahim Səfiyev irsinin tədqiqatçısı Ülviyyə Həmzəyevanın "Görkəmli rəssam İbrahim Səfiyevin həyat və yaradıcılığı" adlı məruzəsi dinlənilib. Məruzədə Naxçıvan Muxtar Respublikasında görkəmli rəssam İbrahim Səfiyevin 120 illik yubileyinin keçirilməsi ilə əlaqədar imzalanmış Sərəncamın icrası istiqamətində görülən işlərdən, rəssamın əsərlərindən ibarət sərginin keçirilməsindən, onun həyat və yaradıcılığının daha geniş tədqiq olunmasına və öyrənilməsinə başlanılmasından, əsərlərindən ibarət albom-kataloqun nəşrə hazırlanmasından danışılıb.

Sonra Ülviyyə Həmzəyeva tanınmış rəssamın çəkdiyi Türk dünyasının görkəmli ictimai-siyasi xadimi Mustafa Kamal Atatürkün portretini Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərova təqdim edib.

Xalq yazıçısı Elmira Axundova, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun direktoru, sənətşünaslıq doktoru, professor Ərtegin Salamzadə, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev, Azərbaycan Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağaəli İbrahimov və digərləri çıxış edərək rəssamın irsindən, onun sənət üçün gördüyü işlərdən və yaradıcılığının daha da dərindən öyrənilməsinin vacibliyindən bəhs ediblər.

**AZƏRTAC**

## Batumi şəhərinin 131 illiyi qeyd edilib

*Aprelin 28-də Gürcüstanın Acarıstan Muxtar Respublikasının paytaxtı Batumi şəhərinin 131 illiyi qeyd edilib.*



"Batumoba – 2019" adı altında keçirilən bayram şənliklərində Azərbaycan da daxil olmaqla, 13 ölkədən qonaqlar, eləcə də Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov iştirak edib.

Batumi şəhərinin meri Laşa Komaxidze və Acarıstan Muxtar Respublikası hökumətinin rəhbəri Tornike Rijvadze qonaqlara şəhərin tarixi, Gürcüstanın sosial-iqtisadi inkişafındakı rolu barədə məlumat veriblər. Bildirilib ki, 1888-ci il aprelin 28-də Batumiyə rəsmi şəhər statusu verilib. Hazırda Batumi şəhəri siyasi, iqtisadi, humanitar və mədəni əhəmiyyətinə görə dünya şəhərləri sırasında layiqli yer tutub. Batumi Azərbaycan da daxil olmaqla, bir neçə ölkənin şəhərləri ilə əlaqələr qurub və qardaşlaşma haqqında memorandumlar imzalayıb. Diqqətə çatdırılıb ki, bugünkü tədbirdə dünyanın 13 ölkəsindən nümayəndə heyətinin və diplomatik korpusun əməkdaşlarının iştirak etməsi bunu sübut edir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov Batuminin şəhər statusu əldə etməsinin 131-ci ildönümü münasibətilə tədbir iştirakçılarını və şəhər sakinlərini təbrik edərək deyib ki, Naxçıvanla Batumi şəhəri arasında sıx dostluq və qardaşlıq əlaqələri mövcuddur. Keçirilən bayram tədbiri əlaqələrimizin daha da möhkəmlənməsinə öz təsirini göstərəcək, şəhərlərimiz arasındakı qardaşlıq münasibətlərini daha da genişləndirəcəkdir. Mirsənani Seyidov Azərbaycanın qədim Naxçıvan şəhərinin milli ornamentlərini özündə əks etdirən xalçanı xatirə olaraq Batumi şəhərinin meri Laşa Komaxidzeyə təqdim edib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının tarixini, mədəniyyətini, müasir inkişafını və turizm potensialını əks etdirən videoçarxlar nümayiş olunub. Həmçinin Batumi bulvarında idman yarışları, konsert və müxtəlif əyləncəli proqramlar təşkil edilib.

**"Şərq qapısı"**

## Layihələrin müzakirəsi aparılıb



Dünən Naxçıvan Dövlət Universitetində "Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinin vəziyyəti və innovasiyaların dəstəklənməsi barədə" keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş tədbir keçirilib. Tədbiri giriş sözü ilə universitetin rektoru Saleh Məhərrəmov açıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev sözügedən müşavirədə nazirliyə əmək bazarının tələblərinə uyğun kadr hazırlığı işinə nəzarətin artırılması, sosial layihələrin həyata keçirilməsinin davam etdirilməsi istiqamətində verilmiş tapşırıqların icrasına uyğun olaraq "İdeyadan başlanğıca" layihəsi çərçivəsində görülən işlər haqqında məlumat verib. Qeyd edilib ki, "Sosial Könüllülük Akademiyası"nı uğurla başa vuran gənclər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində müvafiq işlərə könüllü kimi cəlb olunacaqdır.

Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev bildirib ki, sosial könüllülük layihəsinin həyata keçirilməsində əsas məqsəd könüllülük fəaliyyətinin ictimai, sosial və tərbiyəvi əhəmiyyətinin təşviqi, bu prosesə gənclərin qoşulmasının təmin edilməsi, sosial sahədə çalışacaq könüllülərin yetişdirilməsi və gələcəkdə onların dövlət qurumlarında işlə təmin olunması imkanlarının artırılmasından ibarətdir.

Sonra mövzu ilə bağlı videoçarx nümayiş etdirilib, iştirakçılara sosial könüllülüyün təşviqinə dair bukletlər paylanılıb, fərqləndirici nişanlar təqdim olunub.

Tədbirdə, həmçinin Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə yaradılmış "Sosial Könüllülük Akademiyası"nın ilk məzunlarına sertifikatlar təqdim olunub. Qeyd edilib ki, 3 ay davam edəcək fəaliyyət proqramı əsasında akademiyanı uğurla başa vuran gənclər sosial müdafiə sahəsində könüllü kimi çalışmağa cəlb ediləcəklər.

Tədbirdə sosial könüllülərlə yanaşı, Naxçıvan Dövlət Universitetində Sosial iş ixtisası üzrə təhsil alan tələbələr də iştirak ediblər.

* * *

*Naxçıvan Turizm İnformasiya Mərkəzində "Turizm sahəsində startapların hazırlanması" mövzusunda Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərində Turizm və otelçilik ixtisası üzrə təhsil alan tələbələrlə görüş keçirilib.*



Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzov çıxış edərək bildirib ki, muxtar respublikamızda bütün sahələrdə olduğu kimi, turizmin inkişafı sahəsində də mühüm tədbirlər həyata keçirilir.

Vurğulanıb ki, muxtar respublikada son illərdə turizmin davamlı inkişafını təmin edən sərəncamların imzalanması, güclü turizm infrastrukturunun, maddi-texniki bazanın yaradılması yüksəkixtisaslı kadr hazırlığına qarşı ciddi tələblər qoyur.

Sonra departamentin əməkdaşı, ekspert qrupunun rəhbəri Orxan Cəfərov "Turizm sahəsində startapların hazırlanması" mövzusunda çıxış edərək bildirib ki, "İdeyadan başlanğıca" devizi altında innovasiyaya və dayanıqlı inkişafa əsaslanan, yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin (startapların) həyata keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Turizm Departamentində ekspert qrupu yaradılıb. Ekspert qrupu tələbələrin layihələrini potensial təsirlər, biznes modeli, komanda işi, fərqlilik, yenilikçilik və dayanıqlılıq meyarları üzrə qiymətləndirəcəkdir.

Vurğulanıb ki, layihələr həm qlobal, həm də yerli şəraitdə istifadə edilə biləcək sahələrə həsr olunmalıdır. Bu layihələr otelçilik, turoperatorluq, turagentlik, turizmin növlərinin inkişafı və turist marşrutlarının hazırlanması kimi sahələri əhatə edə bilər.

Sonda tələbələr Naxçıvan Turizm İnformasiya Mərkəzinin fəaliyyəti ilə tanış olublar.

**✍ Pərviz HACILI**

## "Naxçıvan" Universiteti əməkdaşlarının Əlincəqalanın turizm potensialına dair Amerikada elmi məqaləsi işıq üzü görüb



*Ötən həftə ABŞ-ın nüfuzlu "SciTech Central" nəşriyyatının "Beynəlxalq turizm və otel biznes menecment jurnalı"nda "Naxçıvan" Universitetinin əməkdaşları Zülfüqar Zülfüqarov və Sankt-Peterburq Beynəlxalq Turizm Akademiyasının üzvü, iqtisad üzrə fəlsəfə doktoru, dosent Əli Cabbarovun "Azərbaycanın Machu Picchusu Əlincəqala – Naxçıvanda zirvə turizmi" adlı elmi məqaləsi dərc olunub.*

Məqalədə dünyada yayılmış çox maraqlı turizm növlərindən biri olan zirvə turizmi üzrə səyahət edən turistlərin Əlincəqalaya səfərlərinin motivləri araşdırılmaqla unikal yerləşmə mövqeyi, dəniz səviyyəsindən yüksəkliyi, qayalıq platforması, ətraf panoramik mənzərəsi və sübut olunmuş tarixi zənginliyinə görə qalanın turistlərdə yaratdığı təəssüratların rekreasiya və tanışlıq qiymətləndirilməsi aparılıb.

Əlincəqalanın turizm cazibəsinin təhlil olunduğu bu məqalədə Perudakı Machu Picchu qala şəhəri (XV əsr) ilə müqayisədə Əlincəqalanın sübut olunmuş tarixinin min ildən daha çox olduğu, Naxçıvan Muxtar Respublikasına əcnəbi turistlərin səyahətlərinin artması ilə qalanın çox cazibədar turizm destinasiyası halına gəldiyi vurğulanıb. Məqalədə Naxçıvan şəhərindən şimal-şərq istiqamətində 30 kilometr məsafədə yerləşən Əlincəqalanın turizm cazibədarlığını müəyyən edən amillər kimi onun qədim tarixi, qala müdafiəçilərinin Əmir Teymurun ordusuna qarşı on dörd il (1387-1401) müqavimət göstərməsi, daha sonrakı dövrlərdəki tarixi əhəmiyyəti ilə yanaşı, 2016-cı ildə qalanın bərpa olunaraq dünya turizminə qazandırılması göstərilib. Qeyd olunub ki, hər il Naxçıvana səyahət edən 400 minə yaxın turistin mühüm bir hissəsini təşkil edən əcnəbi turistlərin Əlincəqalaya səfərləri zamanı mühüm motiv kimi özünü göstərən zirvə turizmi də turistlərdə yaratdığı emosional və psixoloji rekreasiya tələbatının düzgün qiymətləndirilməsi və bununla da turizmin təşkili zamanı yaranan məsələlərin həllinə xidmət edir.

Təcrübə göstərir ki, Əlincəqala kimi dəniz səviyyəsindən, təqribən, 1500 metr və ətraf platformadan 500 metr yüksəklikdə olan zirvəyə qalxmaqla geniş panoramlı mənzərə ilə tanış olmaq turizmdə kök atmış ənənəvi LLL (Leisure, Lore, Landscape – asudə vaxt, adət-ənənə, landşaft) formulu əvəzinə daha çox EEE (Earth, Extreme, Enjoyment – Yer, ekstrim, əyləncə) məqsədli səyahətlərin daha geniş yayılmasına xidmət edir. Bu da zirvə turizm məqsədilə səyahət edənlər arasında yaşlı və orta nəsil nümayəndələri ilə yanaşı, gənclərin və xüsusən də tələbələrin səyahətlərini motivasiya edir, ekskursantlarda rasionallıq və ekoloji tərbiyə hisslərini gücləndirməklə pedaqoji tərbiyə vasitəsi kimi də istifadə olunur. Məqalə müəllifləri hesab edir ki, dünyada populyarlıq qazanan belə turizm növünün Əlincəqalada da genişlənib onu bir brend kimi tanıtması Naxçıvanda turizm-ekskursiya xidmətlərinin diversifikasiyası baxımından da çox yaxşı seçim ola bilər.

Qeyd edək ki, məqalənin dərc olunmasına Naxçıvanda fəaliyyət göstərən "Cahan" Holdinq və "Ləzzət Qida Sənaye" MMC sponsorluq ediblər.

**Seyfur HACIMURADOV**

Oxunması zəruri olan kitablar

# Pedaqoji ictimaiyyət üçün dəyərli töhfə

***Naxçıvan Muxtar Respublikasında təhsil quruculuğu sahəsində həyata keçirilən tədbirlər, imzalanan dövlət sənədləri mütərəqqi təhsil imkanlarını artırmaqla yanaşı, milliliklə bəşəriliyin nümunəvi modelini, tarixiliklə müasirliyin vəhdətini təqdim edir. Naxçıvan Muxtar Respublikasında təhsil quruculuğu sahəsində aparılan işlərin məntiqi ardıcıllığı, sistemli xarakteri diqqəti çəkməkdədir. Əgər bir neçə il bundan öncə təhsilimizin əsas qayğısı müasir təhsil infrastrukturuna malik məktəb binalarının inşası idisə, ikinci mərhələni məktəbin kadr potensialının gücləndirilməsi təşkil edirdi. Daha sonrakı mərhələdə müasir təlim metodlarının uğurlu tətbiqinə yönəlmiş strateji əhəmiyyətli tədbirlər həyata keçirilib. Təhsil müəssisələrinin müasir kitabxana potensialının gücləndirilməsi və məktəbin kitab fondunun zənginləşdirilməsinə nəzarətin təşkili və qayğıyla əhatə olunması, əlbəttə ki, əsas hədəf kimi mütaliəyə olan marağın artırılmasını zəruri edirdi. Bunun üçün təhsil müəssisələrinin kitabxanalarında elektron kataloq yaradılıb, kitabxanalara 3 milyona yaxın dərslik, 600 mindən çox latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyat verilib. Bugünkü mərhələdə kitabların oxunmasının zəruriliyinin dövlət səviyyəsində təbliği və təşviq olunması tam zamanında və obyektiv maraqlar çərçivəsində yüksək əhəmiyyətə malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixdə imzaladığı "Oxunması zəruri olan kitablar" haqqında Sərəncamı ilə təqdim olunan kitablar və zaman-zaman bu siyahıya yeni əsərlərin əlavə edilməsi oxucu zövqünün sistemli formalaşdırılması ilə yanaşı, mütaliəyə olan marağı da gündən-günə artırmaqdadır.***




Bu günlərdə işıq üzü görən "Pedaqoji fikir tarixindən" adlı kitab Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu tərəfindən 10 min nüsxədən ibarət nəfis şəkildə tərtib olunaraq pedaqoji ictimaiyyətə təqdim edilib. Bu nəşr mahiyyət etibarilə pedaqoji ictimaiyyət üçün dəyərli mənbə, stolüstü kitab səciyyəsi daşıyır. Kitabda pedaqoji fikir tarixində mühüm əhəmiyyəti olan pedaqoji-didaktik mətn nümunələrinin seçilib yerləşdirilməsi oxunaqlılıq baxımından və tərbiyəvi əhəmiyyətinə görə tədqiqatçılıq səriştəsi ilə ümumiləşdirilmiş mənbə kimi diqqətimizi çəkməkdədir.

"Pedaqoji fikir tarixindən" adlı kitabın "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilməsi bu siyahını zənginləşdirməklə yanaşı, müəllimlik fəaliyyətinə, pedaqoji prosesə dövlətimizin yüksək qayğısını ifadə edir. Əsərdə pedaqoji fəaliyyət zamanı cəmiyyətin bütün təbəqələrini yalnız bir amala – təhsil, tərbiyə, mütərəqqi təlim metodları istiqamətinə yönəldən fikirlər toplanıb.

Əsərin əhəmiyyətli cəhətlərindən biri də məktəbimizin və pedaqoji fikrimizin keçmişini öyrənməklə, onun hazırkı vəziyyəti və perspektivlərinin müəyyənləşdirilməsindəki rolundan ibarətdir. Təqdim olunan kitaba diqqətlə nəzər saldıqda bu günün nailiyyətlərinin keçmişdən qidalandığını, ondan qüvvət aldığını da aydın görmək mümkündür.

Kitabda XIX-XX əsrlərdə yaşayan Azərbaycan və Rusiya pedaqoqları, yazıçıları və ictimai xadimlərinin maraqlı fikirləri verilib. ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun oğlunun müəlliminə yazdığı məktub, görkəmli pedaqoq-nəzəriyyəçilərdən olan Uşinski, Çernyayevski, Suxomlinksinin pedaqoji görüş və düşüncələri, Maksim Qorki, Cəlil Məmmədquluzadə, Məhəmməd Tağı Sidqi, Nəriman Nərimanov, Hüseyn Cavid, Eynəli bəy Sultanov, Məhəmməd ağa Şahtaxtlı, Məmməd Səid Ordubadinin əsərlərindən seçmələrin kitabda yer alması nəşrin elmi-pedaqoji dəyəri ilə yanaşı, onun mükəmməl xarakteristikası və sistematikasını da ifadə edir.

Kitabı vərəqlədikcə bir daha aydın olur ki, bu maarifpərvər pedaqoqlar yalnız dərs deməklə kifayətlənməyiblər. Həmin ziyalılar bədii əsərlər yazır, qəzet və jurnallar çap etdirir, yeni üsullu məktəb açır, qiraətxana və kitabxanalar təşkil edir, dərsliklər hazırlayırdılar. Təqdim olunan kitabda əsərləri əks olunan müəlliflər məhz bu mühüm göstəricilərə malik olan şəxsiyyətlərdir.

Bu baxımdan publisist-politoloq Reyhan Mirzəzadənin "Uşinskinin, Çernyayevskinin, Suxomlinskinin əziz xatirəsinə" və "Pedaqogikada misli görünməmiş təcrübə" adlı tədqiqatlarının kitabda yer alması məhz bu mütərəqqi düşüncəli pedaqoqların irsinin öyrənilməsinə həsr edilmiş dəyərli araşdırma kimi diqqəti cəlb edir. Rus və dünya pedaqogika elminin və xalq məktəblərinin görkəmli nümayəndəsi hesab olunan Konstantin Dmitriyeviç Uşinski pedaqoji prosesdə müəllimin rolunu yüksək qiymətləndirərək deyirdi: "Müəllim nə qədər ki, oxuyur, öyrənir, o yaşayır, oxumağı dayandırdıqda ondakı müəllimlik ölür". Demokratizm və xəlqilik Uşinskinin pedaqoji fəaliyyətində əsas istiqamətdir. O deyirdi ki, "Xalqı öyrənmək gərəkdir, lakin xalqdan öyrənmək daha vacibdir".

Azərbaycanın maarifpərvər ziyalıları pedaqoji fəaliyyətində Uşinskinin irsindən, xüsusilə onun ana dilinin tədrisinə dair qiymətli fikirlərindən bəhrələniblər. Bu gün dünyada model kimi təqdim olunan təhsil məsələləri haqqında hələ uzun illər bundan öncə danışan Uşinski şagirdlərin ev tapşırığı ilə həddindən artıq yüklənməsinin zərərindən bəhs edərək, ibtidai siniflərdə, xüsusilə I sinifdə şagirdlərin bütün dərslərini sinifdə müəllimin nəzarəti və rəhbərliyi altında öyrənməli olduqlarını göstərirdi. Bu faktın özü onu sübut edir ki, təqdim olunan əsər zamanında olduğu kimi bu gün də çox mühüm aktuallıq kəsb edir.

Azərbaycanda və ümumən, Zaqafqaziyada pedaqoji fikrin inkişafı tarixində görkəmli yer tutan tanınmış simalardan biri də Aleksey Osipoviç Çernyayevskidir. Uşinski ideyalarının Azərbaycanda ilk təbliğatçılarından biri olan Çernyayevski Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinə 14 il rəhbərlik etmiş, azərbaycanlı uşaqların ana dilində ibtidai təhsilinin elmi cəhətdən əsaslandırılan metodikasını işləyib hazırlamışdı.

Kitabda haqqında bəhs olunan digər görkəmli pedaqoq Anton Semyonoviç Makarenko uşaq kollektivi, tərbiyə prinsipləri, valideynlərin vəzifələri haqqında nəzəri görüşləri ilə məşhurdur. O, məktəbəqədər təhsilin vacibliyini qeyd edərək, valideynlərə xitabən deyirdi ki, "uşağın necə olacağı əsas etibarilə sizin onu 5 yaşına kimi necə tərbiyə edəcəyinizdən asılıdır. Əgər siz uşağı 5 yaşına kimi lazımi qaydada tərbiyə etməmişsinizsə, sonra yenidən tərbiyə etmək lazım gələcəkdir, yenidən tərbiyə isə çox çətindir. Buna görə də ailədə uşağın ilk yaşlarından tərbiyə edilməsi çox mühümdür".

Kitabda haqqında bəhs olunan görkəmli pedaqoq Vasili Aleksandroviç Suxomlinskinin pedaqoji ideyalarının təməlini təhsilə mənəvi yanaşma təşkil edirdi. Suxomlinski hər bir uşağın uşaqlıq dövrünün uzadılmasını vacib sayırdı. Onun fikrincə, uşaqların saflığını qorumaq üçün onlarda dünyaya müsbət baxış formalaşdırmaq önəmlidir. Estetik tərbiyəni lap kiçik yaşlardan başlamağı, onlara uşaq oyunları, nağıllar, mahnılar öyrətməyi, şəkilli kitablar, teatr, kino, sərgilərdən istifadə etməyi məsləhət görürdü.

Böyük ədib Maksim Qorkinin kitaba daxil edilmiş "Mən necə öyrənirdim?", "Oxumaq lazımdır", "Mən necə oxumuşam?" adlı məqalələrində kitaba və oxumağa olan həvəsin yolları açıqlanır.

Cəlil Məmmədquluzadə pedaqoq kimi daim məktəb həyatı ilə bağlı olub. "Maarif" məqaləsində də o, cəmiyyət həyatının nicatını məhz maarifdə görür.

Kitabda pedaqoji fikrimizin əsas simalarından biri kimi təqdim olunan Məhəmməd Tağı Sidqinin açdığı yeni üsullu məktəblər xalqımızın bütöv bir ziyalı nəslini yetişdirib. "Elm bir çox kitabları oxuyub yazmaqdan ibarət deyil, oxuduqca anlamaqdan ibarətdir", – deyən Məhəmməd Tağı Sidqi məktəbdə tədrisin səviyyəsinə, müəllimlərin dərsə hazırlığına, şagirdlərin bədii nitqinə, biliklərinin inkişaf etdirilməsinə xüsusi fikir verməklə Azərbaycan məktəbdarlığında yeni ənənələrin əsasını qoyub, milli maarifçilik tariximizdə özünə böyük abidə ucaldıb.

Nəriman Nərimanovun həyatında pedaqoji-maarifçilik fəaliyyəti ayrıca əhəmiyyət kəsb edir. Onun pedaqoji irsində mərkəzi yerlərdən birini də müəllim, onun şəxsiyyəti, müəllim kadrlarının hazırlığı məsələsi tutur. Nəriman Nərimanov xalq arasında savadın yayılmasında, xalqın ümumi tərəqqisində müəllimin rolunu yüksək qiymətləndirirdi. O, "müəllim" sözünü geniş mənada başa düşür, müəllimin geniş xalq kütlələri arasında işinə, ictimai fəaliyyətinə böyük əhəmiyyət verirdi. Nərimanov dövrün görkəmli müəllimlərinin yaxından iştirakı ilə 1894-cü ildə Bakıda ilk milli kütləvi kitabxana-qiraətxananın əsasını qoyub. Nəriman Nərimanov təkcə praktik pedaqoq deyil, eyni zamanda pedaqogika tarixi, psixologiya, Azərbaycan dili və onun tədrisi metodikasının bir sıra nəzəri məsələləri ilə də məşğul olub.

Kitabda pedaqoji fikir nümunəsi kimi Hüseyn Cavid yaradıcılığına da müraciət edilib. O, "Həsbi-hal" məqaləsində ibtidai siniflərin dərslik və proqramları haqda ayrıca söz açıb. Hesab edib ki, dərslik və proqramlar olduqca düşünülmüş, aydın və mənfəətli olmalıdır. Onlarda mövhumat və xurafata aid nə varsa islah edilməlidir. Başqa sözlə, dərsliklər, proqramlar elmi-pedaqoji və metodik prinsiplərə uyğun hazırlanmalıdır. Çünki bu, zamanın tələbidir. Cavid mütaliə ilə bağlı müəllimin qarşısına ciddi vəzifələr qoyurdu. Yazırdı ki, müəllim öyrənib və şagirdlərə öyrətdiyi kitablarla kifayətlənməməlidir. Müntəzəm olaraq pedaqogikaya, təbiətə və əxlaqa aid kitabları mütaliə etməlidir. Sadəcə, mütaliə etməli deyil, oxuduğu kitablardan faydalı nəticə çıxarmalı və bunu öz işində tətbiq etməlidir.

Kitabda, həmçinin Eynəli bəy Sultanov, Məhəmməd ağa Şahtaxtlı, Məmməd Səid Ordubadi kimi görkəmli mütəfəkkirlərin elm, maarif, məktəb, təlim və tərbiyəyə dair qiymətli fikirlərini ifadə edən əsərlərindən parçalar verilib.

*Əminik ki, "Pedaqoji fikir tarixindən" kitabının kütləvi nəşr edilib, pedaqoji ictimaiyyətə hədiyyə edilməsi, cəmiyyətimizin mütaliəyə, təhsil və tərbiyəyə istiqamətləndirilməsi, müəllim nüfuzunun yüksəldilməsi, milli təhsil islahatlarına mühüm yanaşma baxımından əvəzsiz mənbə rolunu oynayacaq. Geniş oxucu kütləsi, hətta valideynlər üçün qiymətli sayılan bu əsərin pedaqogika tarixinə faydalı olacağına tam əminliklə inanırıq.*

**Elbrus İSAYEV**
***Naxçıvan Müəllimlər İnstitutunun rektoru***
***"Azərbaycan müəllimi" qəzeti***
***26 aprel 2019-cu il***

***"Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə respublika final mərhələsinin qalibi olan Babək rayon Payız kənd tam orta məktəbinin komandasının mükafatlandırılması mərasimi keçirilib.***

# Şagirdlərimiz final mərhələsinin qalibi olub



Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov qeyd edib ki, ümumtəhsil məktəblərində şagirdlərdə hərbi-vətənpərvərlik tərbiyəsinin formalaşdırılması məqsədilə müxtəlif müsabiqələr və yarışlar keçirilir. Həmin yarışlardan biri də "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyüdür. Bu yarış üzrə əvvəlcə ümumtəhsil məktəbliləri arasında zona yarışları keçirilib, orada yüksək nəticə əldə edən 8 komanda aprelin 17-də muxtar respublika birinciliyi uğrunda mübarizə aparıblar. Babək rayon Payız kənd tam orta məktəbinin komandası qalib olaraq respublika final mərhələsində muxtar respublikanı təmsil etmək hüququ qazanıb. 24-29 aprel tarixdə Göygöl rayonunda ölkəmizin müxtəlif bölgələrinin 16 komandası arasında keçirilən yaz çağırışına həsr olunmuş poliatlon çoxnövçülüyü üzrə respublika çempionatında Payız kənd tam orta məktəbinin komandası uğurla çıxış edərək çempionatın qalibi olub. Həmçinin komandanın üzvlərindən Fərid Əsədov və Sənan Əşrəfov 100 və 2000 metr məsafəyə qaçış mərhələlərində ən yüksək nəticə göstərdiklərinə görə kubokla mükafatlandırılıblar.

Təhsil naziri vurğulayıb ki, qazanılan uğurlar muxtar respublika məktəblilərinin may ayında keçiriləcək "Sərhəd" və "Şahin" hərbi idman oyunlarının final mərhələlərində də yüksək nəticələr əldə edəcəklərinə ümid verir.

Tədbirdə gənclər və idman naziri Azad Cabbarov çıxış edərək Naxçıvan Muxtar Respublikasında gənclərin kütləvi bədən tərbiyəsi və idman tədbirlərinə cəlb olunması, idmanın inkişaf etdirilməsi məqsədilə yaradılan şəraitdən danışıb. Nazir vurğulayıb ki, Babək rayon Payız kənd tam orta məktəbinin komandasının ölkə birinciliyində əldə etdiyi uğur gənclər və idman sahəsində həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir.

Tədbirdə Payız kənd tam orta məktəbinin direktoru Turan Məmmədli çıxış edərək əldə edilən uğurun məktəbdə yaradılan müasir tədris şəraitinin nəticəsi olduğunu qeyd edib, təhsilə göstərdiyi dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə məktəbin kollektivi adından minnətdarlığını bildirib.

Tədbirin sonunda Payız kənd tam orta məktəbinin qalib komandasına diplom, kubok, nazirliklərin plaketləri, komandanın üzvlərinə isə idman geyim dəsti və çantası hədiyyə edilib.

**Ceyhun MƏMMƏDOV**

# "Mütaliə aylığı" başa çatıb









***Muxtar respublikanın ümumtəhsil məktəblərində aprel ayında keçirilən "Mütaliə aylığı"nın yekunu ilə bağlı tədbir olub.***

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamının əhəmiyyətindən danışıb.

Vurğulanıb ki, mütaliənin şagirdlərin mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün və bilik dairəsinin genişlənməsində müstəsna əhəmiyyəti nəzərə alınaraq ümumtəhsil məktəblərində bu sahədə şagirdlərlə məqsədyönlü maarifləndirmə işləri aparılır. Bu tədbirlərin davamlı və kütləvi xarakter daşıması məqsədilə nazirlik aprel ayını muxtar respublika ümumtəhsil məktəblərində "Mütaliə aylığı" elan edib.

Qeyd olunub ki, bu çərçivədə bir sıra tədbirlər keçirilib. Təqdirəlayiq haldır ki, bu ayda 3844 şagird oxuduğu əsərlər haqqında esse yazıb, 149 məktəbdə 946 şagirdin iştirakı ilə dram əsərlərindən parçalar səhnələşdirilib. Bundan başqa, "Oxu günü"nə, "Poeziya günü"nə, kitab müzakirələrinə, ədəbi-bədii gecələrə həsr edilmiş tədbirlərə 16 minə yaxın şagird cəlb edilib. Qeyd olunanlar şagirdlərin mütaliəyə kütləvi cəlbində və istedadlı şagirdlərin üzə çıxarılmasında aylığın keçirilməsinin nə qədər mühüm əhəmiyyət kəsb etdiyini bir daha göstərir.

Təhsil naziri diqqətə çatdırıb ki, şagirdlərin mütaliəyə təşviq edilməsi, onlarda mütaliə vərdişləri və mədəniyyətinin yaradılması istiqamətində davamlı tədbirlər keçirilməlidir.

Sonra tədbir bədii hissə ilə davam edib, "Pedaqoji fikir tarixindən" kitabından görkəmli pedaqoqlara aid seçmələr oxunub, musiqi nömrələri maraqla qarşılanıb.

Sonda esse və dram müsabiqələrinin qaliblərinə diplom, oxunması zəruri olan kitablar və hədiyyələr verilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***





# Zəka oyununun inkişafında muxtar respublikanın rolu

## *Beynəlxalq Şahmat Festivalı daha mühüm uğurlarla yadda qalacaq*

***“Döyüşlər rinqdə baş verir, müharibələr isə lövhələr üzərində aparılır” və “şahmat beyinin əyləncəsidir” kimi deyimlər son dövrlər daha çox səsləndirilməyə başlanılıb. Bunu bir çox səbəblərlə izah edirlər. Lakin buna ən real cavabı hollandiyalı rəssam İpe Rubinqstal şahmatı fiziki sınaqlarla birləşdirərək şahboks yaratmaq qərarına gələrkən verib. Bu ideyanı ilk dəfə şahmat və boks haqqında olan “Komiks” kitabından götürən Rubinqstalın fikrincə, şahboksda şahmat və boksun raundları bir-birini əvəzləyir – şahboks getdikcə daha çox məşhurluq qazanır və dünya şahboks təşkilatının nəzarəti altındadır. Psixoloqlar isə şahmatın yaddaşı gücləndirmək üçün əla bir vasitə olduğunu deyirlər. Bu həmçinin çətin tapşırıqları həll etmək və yeni ideyalar yaratmaq imkanı verir. Təsadüfi deyil ki, alman psixiatoru Alois Altsqeymer xəstələrinə ona qarşı mübarizə metodu kimi şahmat oynamağı tövsiyə edirdi.***

Şahmat fitrətən, yəni anadangəlmə yüksək istedad və intellektual qabiliyyətə malik olan insanlar üçün bir oyun hesab edilir. Bəli, bu, müəyyən qədər həqiqətdir, amma insanın şahmat oynayaraq öz intellektual qabiliyyətini yüksəltməsinin mümkünlüyü də bir reallıqdır. Həkimlərin apardığı araşdırmalar göstərir ki, şahmat beyinin hər iki yarımkürəsinin fəaliyyətini aktivləşdirir, yaradıcılıq qabiliyyəti, diqqət, tənqidi düşüncə kimi vərdişləri insanda cəmləşdirir.

Bu idman oyunu bir tərəfdən gənclərin əqli inkişafına kömək edirsə, digər tərəfdən onların asudə vaxtlarının səmərəli təşkilinə xidmət edir. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin hər yerində olduğu kimi, muxtar respublikada da şahmat məktəbləri üçün yeni binaların tikintisi, mövcud binaların yenidən qurulması və idman federasiyalarının yaradılması işinə başlanılmışdır. Ulu öndər müstəqillik dövründə də şahmatın inkişafına diqqət göstərmiş, onun himayə və qayğısı ilə bu sahədə möhkəm maddi-texniki baza yaradılmışdır.









2003-cü ildə Naxçıvan Muxtar Respublikasında gənclər arasında keçirilən şahmat üzrə dünya çempionatı bu növün muxtar respublikada uşaq, yeniyetmə və gənclər arasında kütləviləşməsinə, inkişafına böyük təkan oldu. Naxçıvan Muxtar Respublikasında Şahmat Federasiyası yaradıldıqdan sonra Naxçıvan şəhərində şahmatçılar üçün məktəb tikilib istifadəyə verildi. İdman siyasəti, daha dəqiq desək, zəka oyununun inkişaf tədbirləri təkcə Naxçıvan şəhəri ilə məhdudlaşmadı, rayonlarda da bu növün kütləviləşməsi üçün addımlar atıldı. Ardıcıl olaraq Culfa, Şahbuz və Şərur, 2011-2013-cü illər arasında isə Ordubad, Sədərək, Babək və Kəngərli rayonlarında Uşaq-gənclər şahmat məktəblərinin yeni binalarının şahmatçıların ixtiyarına verilməsi bu tədbirlərin davamıdır. 2009-cu ildə isə Naxçıvan şəhərində ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Şahmat Mərkəzi istifadəyə verildi.

Zəka oyununun inkişafı hər bir ölkənin, xalqın ümumi intellektual potensialının göstəricisidir. Ölkəmizdə bu növün dövlət səviyyəsində himayə olunması, infrastrukturun müasirləşdirilməsi, beynəlxalq səviyyəli şahmat mütəxəssislərinin hazırlanması sahəsində ardıcıl işlər görülür. Bu, şahmata nə qədər önəm verildiyinin göstəricisidir. Naxçıvan Muxtar Respublikasında da şahmatın inkişafına göstərilən diqqətin nəticəsidir ki, yetişən gənc nəsil üçün şahmat daha əlçatan olmuşdur. Bununla yanaşı, ümumtəhsil məktəblərində şahmat fənninin dərs proqramına daxil edilməsi, Naxçıvanda beynəlxalq şahmat festivallarının və digər yarışların keçirilməsi şahmat hərəkatının genişlənməsinə, gənclərin bu idman növünə marağının xeyli artmasına səbəb olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxışlarının birində demişdir: ***“Gənclərin intellektual və mənəvi inkişafında, asudə vaxtlarının səmərəli təşkilində şahmat əvəzsiz vasitədir. Ona görə də Naxçıvan Muxtar Respublikasında şahmatın inkişafına xüsusi diqqət göstərilir, uşaq-gənclər şahmat məktəbləri ilə yanaşı, ümumtəhsil məktəblərində də şahmat fənni tədris olunur. Hər il Naxçıvanda keçirilən beynəlxalq şahmat festivalı və digər şahmat yarışları şahmatın inkişafında, bu sahədə gənc istedadların yetişməsində böyük rola malikdir. Biz, xüsusilə Beynəlxalq Şahmat Festivalının işinə mühüm əhəmiyyət veririk. Bu mötəbər və ənənəvi yarışa göstərilən böyük maraq, iştirakçı zəka sahiblərinin sayının hər il artması haqlı olaraq Naxçıvanı özünəməxsus şahmat mərkəzinə çevirmişdir”.***

Şahmat möcüzəli, istedad tələb edən, “beyinin gimnastikası” adlı bir oyundur. Bu idman uşaqlarda qalib gəlmək əzmi formalaşdırır, onların zehni inkişafında mühüm rol oynayır. Buna görə də şahmatı təkcə idman növü kimi deyil, insan məntiqini zənginləşdirən elm kimi də qəbul etmək lazımdır.

5 yaşından zəka oyununu oynamağa başlayan, dünya çempionu, kubalı şahmatçı Xose Raul Kapablankanın fikrincə, şahmat, sadəcə, oyun deyil, intellektual vaxt keçirməkdir. Həmçinin onda elmin müəyyən elementləri var. Zehni işdə işləyənlər üçün şahmat oynamaq idmançılar üçün idmanla məşğul olmaq kimidir. Şahmat insan əqlini məşq etdirməyin ən gözəl yoludur.

Bəli, şahmat oyunu uşağın dünyagörüşünün inkişafına təsir edir, diqqətli olmağı, fikirləşməyi, müqayisə etməyi, əvvəlcədən oyunun nəticəsini görməyi öyrədir. İxtiraçılıq qabiliyyətini və qanunauyğunluq təfəkkürünü inkişaf etdirir.

Bu gün muxtar respublikamızda şahmatın inkişafı üçün ardıcıl tədbirlər həyata keçirilir və keçirilməkdədir. Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasında aparılan kadr islahatı isə şahmatın tarixində yeni və davamlı inkişaf mərhələsinin əsasını qoyub. Federasiya 2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında” keçirilən müşavirədə Ali Məclis Sədrinin verdiyi tapşırıqların və qarşıya qoyduğu vəzifələrin icrasını diqqət mərkəzində saxlayır. Federasiya sədrinin muxtar respublikanın bir sıra rayonlarında fəaliyyət göstərən şahmat müəllimləri, şahmatçılar və valideynlərlə keçirdiyi görüşlər, müzakirələrin aparılması, problemlərin yerində öyrənilməsi və həlli bu idman növünün inkişafına mühüm təkan verib. Federasiyanın düzgün seçilmiş inkişaf strategiyası nəticəsində uşaqların, xüsusilə də valideynlərin bu idman növünə marağı gündən-günə artır. Deməli olar ki, hər ay, şahmat məktəblərində şəhər və rayon, eyni zamanda idarə və təşkilatlar, dövlət qurumları, məktəblilər arasında birinciliklər və mütəmadi olaraq tempo yarışları təşkil olunur. Federasiyadan aldığımız məlumata görə, son aylar şahmat məktəblərinə müraciət edənlərin sayı xeyli artıb. Digər yenilik isə mükafat fondunun təsis edilməsi ilə bağlıdır. Şahmat Federasiyasının sədri Seymur Talıbovun şəxsi təşəbbüsü ilə yaradılan fond şahmatçılar və məşqçi-müəllimlərin zəka oyununa marağını artırmaq məqsədi daşıyır.

Naxçıvanda hamı şahmat oynayır, – desək, yəqin ki, yanılmarıq. Sağlam gəncliyin yetişdirilməsinə və analitik düşüncə tərzi formalaşdırmağa xidmət edən şahmatın inkişafına diqqət və qayğını hər addımda görmək olar. Bu gün Naxçıvan şəhərindəki Şahmat Mərkəzi və bölgələrdəki şahmat məktəbləri 67 ən yeni müasir kompüter və 9 elektron lövhə, həmçinin şahmatla bağlı elektron tədris vəsaitləri ilə təchiz olunub, ümumtəhsil məktəblərində şahmatın tədrisi üçün siniflər ayrılıb, ümumilikdə, ümumtəhsil məktəblərinə 490 ayaqlı, 500 asma və 3910 stolüstü şahmat dəsti verilib. Hazırda muxtar respublikanın ümumtəhsil məktəblərinin I-IX siniflərində 5720 saat şahmat dərsi tədris edilir. Şahmatın tədrisi ilə 445 müəllim məşğul olur. Təhsil müəssisələrində şahmat müəllimlərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədilə Təhsil Nazirliyi və Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə müəllimlərin sertifikasiya imtahanları keçirilmiş, şahmatı tədris edən 401 müəllim imtahanı uğurla vermişdir. Muxtar respublikada fəaliyyət göstərən 200-dən artıq məktəblə ayda bir dəfə Naxçıvan Şahmat Mərkəzi arasında onlayn bağlantı yaradılır. Bağlantı vasitəsilə eyni vaxtda yüzlərlə şagirdə mərkəzin müəllimləri tərəfindən ustad dərsləri keçilir. Bununla yanaşı, ayda bir dəfə müəllimlər üçün onlayn seminarlar təşkil olunur.

İdmanın bu növünün uşaq və gənclər arasında kütləviləşməsi məqsədilə də müəyyən işlər görülür. Bunlardan biri də müəllim və şagirdlər üçün kitabların, dərs vəsaitlərinin tərcümə olunub çap etdirilməsidir. Şahmat Federasiyasının təşkilatçılığı ilə 800 nüsxə nəşr olunan “Pillə-pillə” kitabı məhz ümumtəhsil məktəblərində şahmatın dərslik, dərs vəsaiti və digər tədris-metodik ədəbiyyatlara olan ehtiyacının qarşılanması məqsədini daşıyır. Sertifikat almış şahmat müəllimlərinə federasiya tərəfindən hədiyyə edilən bu yeni nəşr, heç şübhəsiz ki, Naxçıvanda şahmatın tədrisinin keyfiyyətinin yüksəldilməsinə öz töhfəsini verəcək.

Şahmat Federasiyasının sədri Seymur Talıbov müəllimlərlə keçirilən görüşlərin birində demişdir: *“Şahmat məktəbində heç kəsə məhdudiyyət qoyulmamalı, məktəblilərin öz aralarında oyun oynamaları üçün əlavə sinif otaqları hazırlanmalıdır. Cəmiyyətə şahmatı doğmalaşdırmaq lazımdır. Çünki muxtar respublika rəhbəri tərəfindən idmana hər zaman diqqət, qayğı göstərilir”.*

Bəli, bu gün şahmat muxtar respublikada cəmiyyətə doğmalaşan bir idman növüdür. Məhz bunun nəticəsidir ki, hər il olduğu kimi, bu il də ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümü münasibətilə Şahmat Mərkəzində Beynəlxalq Şahmat Festivalı keçiriləcək. Bu gün başlayacaq “Naxçıvan Open – 2019” Beynəlxalq Şahmat Festivalında 14 ölkədən 350-yə yaxın zəka sahibi iştirak edəcək. Bu festivalda ilk dəfə olaraq Amerika Birləşmiş Ştatlarının şahmatçısı da mübarizə aparacaq. Sevindirici haldır ki, festivalın “A” qrupunda 1 qrossmeyster, 2 beynəlxalq usta və 2 FİDE ustası olmaqla, 5 zəka sahibimiz ən güclülərlə eyni masa arxasında əyləşəcək.

Yüksək səviyyədə təşkil olunan festival bu gün muxtar respublikada idmanın unikal inkişafının növbəti göstəricisi olmaqla yanaşı, Naxçıvanın beynəlxalq nüfuzunun daha da artmasına, qədim diyarımızın tarixinin, bugünkü tərəqqisinin təbliğinə, həm də turizmin inkişafına böyük təkan verəcək.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Naxçıvan şəhəri, Qaraçuq kəndində yaşamış Haqverdiyev Sabir Bayram oğlunun adına olan JN-218 inventar-nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Culfa rayon Bənəniyar kəndində yaşamış ƏliyevaLəzifə Hüseyn qızının adına verilmiş JN-464[A] inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Culfa rayon Bənəniyar kəndində yaşamış Əliyeva Mənzurə Hüseyn qızının adına verilmiş JN-465[A] inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Tağıyeva Sevinc İsmayıl qızının adına 8 avqust 2005-ci il tarixdə Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi tərəfindən verilmiş 0504703711 nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 299